https://doi.org/10.59849/3006-1342.2025.3.105
UOT 94

*Samirə Ağasalam qızı Hadıyeva*
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*"Atropatena və Albaniya (Qafqaz) tarixi" şöbəsinin kiçik elmi işçisi*
*E-mail: samira1997hadiyeva@gmail.com*
*ORCID: 0000-0002-9348-212X*

# ERMƏNİ İDEOLOGİYASININ FORMALAŞMASINDA XRİSTİANLIĞIN ROLU

*Milli kimliyin formalaşmasına təsir edən bir çox ünsürlər vardır. Bu ünsürlərdən biri sayılan din (xristianlıq), ermənilərin siyasi birliyinin qorunub saxlanılmasında, millətin təşəkkülü və formalaşmasında tarixboyu əvəzsiz rol oynamışdır. Erməni cəmiyyətində xristianlığın qəbulu sadəcə bir dini dönüşüm deyil, həm də milli və etnik kimliyin təşəkkülündə təməl faktor kimi çıxış etmişdir. Xristianlığın yayılması ilə birlikdə Armeniya coğrafiyasında kilsə yalnız dini mərkəz kimi deyil, həm də siyasi və sosial həyatın təşkilatçısı, milli birliyin möhkəmləndiricisi rolunu oynamışdır. Tarixi mənbələr göstərir ki, ermənilər öz milli varlıqlarını və ideologiyalarını əsasən kilsə və dini ilə əlaqələndirmiş, bu da onların etnik fərqliliyinin və siyasi birliyinin qorunmasında mühüm rol oynamışdır. Bu məqalədə ermənilərin xristianlığı qəbul etməsi prosesi, xristianlığın qəbulundan sonra formalaşan kilsə strukturu və bu strukturun erməni kimliyinin formalaşmasındakı rolu araşdırılmışdır. Həmçinin, ermənilərin beynəlxalq arenada vurğulamağa çalışdıqları "ilk xristian dövləti" iddiasının tarixi əsası müxtəlif mənbələr işığında təhlil edilmişdir. Nəticədə göstərilmişdir ki, xristianlıq və kilsə erməni milli ideologiyasının və siyasi identitetinin mərkəzində dayanaraq tarixi inkişaf prosesində əvəzolunmaz rol oynamışdır.*

*Açar sözlər:* Armeniya, Xristianlıq, Müqəddəs Qriqor, Apastol, Erməni kilsəsi

## Giriş

Kimlik insanın ictimai mühitdə özünü necə müəyyən etməsi, tanıması və yerləşdirməsinin ifadəsidir. Termin olaraq kimlik termini etnik kimlik, dini kimlik, mədəni kimlik kimi bir çox fərqli sahədə və formalarda da istifadə olunur. Kimlik anlayışına millətin kimliyi kimi baxdıqda isə, bir çox sosioloji və siyasi anlayışların bütününü və o millətin ortaq dəyərlərini ifadə edir. Millətin kimliyi istifadə olunan dildən tarixə, siyasi hadisələrdən dinə, ümumi məqsədlərdən coğrafi ümumiliyə qədər bir çox anlayışı özündə ehtiva edir. Kimlik millətin varlığı və uzunömürlülüyü üçün son dərəcə vacibdir. Bu kontekstdə ermənilərin kimliyinə baxdıqda, onların öz milli kimliklərini ifadə edərkən daha çox kilsə və dindən istifadə etdikləri görünür. Ermənilər öz varlıqlarını dinin və kilsənin üzərində qurmuşlar. "Erməni varsa, erməni kilsəsi də var, erməni milləti yoxdursa, erməni kilsəsi də yoxdur". Belə bir anlayışın təbii nəticəsi olaraq dinin erməniliyin və ya erməni millətçiliyinin mərkəzində olması təbiidir. [8, s. 233]. Onların siyasi birliyinin qorunub saxlanılmasında, erməni icmalarının təşəkkülü və formalaşmasında din mayak rolunu oynamışdır. Bu baxımdan bu araşdırmanın əsas məqsədi ermənilərin xristianlığı qəbulu, dünyaya qəbul etdirmək istədikləri "ilk xristan dövləti" mifi və dinin qəbulu fonunda kilsə strukturunun, erməni kimliyinin formalaşması məsələlərinə nəzər salmaqdır.

### 1. Xristianlığın qəbulu qədim mənbələrdə.

Mövzu ilə bağlı, ilk növbədə qədim mənbələrə müraciət etmək zəruridir. Məlumdur ki, klassik Yunan-Roma mənbələrində ermənilərin yaşadıqları bölgələrdə xristianlığın necə yayılması mövzusuna demək olar ki, heç vaxt toxunulmamışdır. Buna görə də bununla bağlı

daha çox  erməni mənbələrinə müraciət etmək lazımdır. Qədim erməni dilində yazılmış tarixi mənbələr isə təbii olaraq V əsrdə  erməni əlifbasının yaranmasından sonra, yəni ermənilərin xristianlığı qəbul etməsindən təxminən yüz əlli il sonra meydana çıxmış, yəni bu məlumatlar retrospektiv şəkildə ələ alınmışdır. Qədim erməni mənbələri arasında ermənilərin xristianlaşdırma mövzusu ilə bilavasitə məşğul olan iki mühüm  müəllif vardır. Bunlardan birincisi Aqafangeldir. Müəllif bu əsərdə, IV əsrdə ermənilər arasında xristianlığın yayılması, həmin dövrdə xristianlığın Şərqə ötürülməsində mühüm rol oynayan  dini mərkəz Qeysəriyyə şəhərinin vasitəçiliyi sayəsində baş vermişdir. O, bu prosesi təsvir edərkən həm mifoloji, həm də tarixi xarakterli məlumatlar təqdim edir. Bu fakt, olduğunu göstərir. Aqafangelin əfsanəyə əsaslanan nəqlinə görə, ermənilərin xristianlaşması belə baş vermişdir: Sasani şahı Armeniyanın Parfiya əsilli  çarı I Xosrovu ( III Trıdatın babası) öldürmək müqabilində bütün ailə əmlakını Anak adlı başqa bir Parfiya zadəganına qaytaracağını vəd edir. Parfiya əsilli Anak Armeniya bölgəsinə gələrək çar I Xosrov ilə dostluq edir və fürsət tapıb onu öldürür. I Xosrov və Anak ailələrinin bu münaqişələrindən isə yalnız iki uşaq sağ qalır: Roma torpaqlarına qaçırılan Xosrovun oğlu Trıdat və daha çox "Maarifçi Qriqor" kimi tanınan Kapadokiya Qeysəriyyəsinə qaçırılan Anakın oğlu Qriqor. Vaxt keçdikdən sonra  hər ikisi Armeniyaya qayıdır və Trıdat Roma imperatoru Diokletianın dəstəyi ilə hakimiyyəti ələ keçirir. Bu vaxt Qeysəriyyədən savadlı və yetkin xristian kimi qayıdan Qriqori Trıdatın yanında xidmətə başlayır. İkisi arasındakı yaxşı münasibət isə Trıdatın Qriqorini məhsuldarlıq ilahəsi Anahitə qurban verməyə məcbur edənə qədər davam edir. Qurban kəsməkdən imtina edən Qriqoriyə işgəncə verilir və bu işgəncə zamanı onun əsl kimliyi, yəni kralın atasının qatilinin oğlu olduğu üzə çıxır. İşgəncələrdən sonra Qriqori ilanlarla dolu quyuya atılır. Bu vaxt Trıdat öz ölkəsində xristianları təqib etməyə başlayır. Trıdatın təqibləri onun Romadan qaçaraq Armeniyaya sığınan otuz nəfərə yaxın bakirə qıza qarşı zorakılığı ilə yekunlaşır. Onlardan birinə (Hiripsime/Ripsime) təcavüz etməyə çalışan çar, günahları ucbatından çöl donuzuna çevrilir. Müalicə axtarışları nəticəsiz qalan şahın bacısı Xosroviduxt yuxuda əsir Qriqoridən başqa heç kimin qardaşını sağalda bilməyəcəyini görür. Kralın adamları gedib Qriqorini on beş il həbsdə olduğu quyudan çıxarırlar. Qriqori əvvəlcə Trıdat tərəfindən öldürülən müqəddəsləri kral sarayının yaxınlığında dəfn etdirdi və orada kilsələr tikdirdi, sonra dua edərək padşaha şəfa verdi [Aa,  18-126]. Beləliklə, xristianlığı Qriqori vasitəsi ilə qəbul edən III Trıdat, Aqafangelin dediklərinə əsaslanaraq dərhal Armeniyada bütpərəst məbədləri sökməyə, kilsələr tikməyə başladı və bununla da ermənilər xristianlığı qəbul etdilər. Aqafangelin Müqəddəs Qriqori haqqında verdiyi ən mühüm məlumatlardan biri də 301-ci ildə Qeysəriyyədə keçirilən kilsə məclisində onun erməni katolikosu təyin edilməsidir [Aa, 196]. Məhz bu tarix yəni 301-ci il Armeniyada xristianlığın dövlət dininə çevrilməsi tarixi qəbul edilir [5, s. 117; 1, s. 347].

V əsrin ikinci yarısında Aqafangelin təxminən müasiri Favstos Buzandın müəllifi olduğu "Erməni tarixi" əsərində isə xristianlığın qəbulu birbaşa Suriya qoluna dayanmaqdadır. O, xristianlığı bölgəyə həvarilərdən biri və ya Edessadan gələn müqəddəslərdən biri olan Apostol Faddey tərəfindən gətirildiyini iddia edir [PʿB. *III. 1*].

Bundan başqa vurğulanmalı olan digər erməni mənbəsi isə Movses Xorenatsı və ya Moisey Xorenlinin "Erməni tarixi" əsəridir. Kitabda V əsrdən  sonrakı dövrə aid olan məlumatların yer alması onun erməni tarixçilərinin dediyi kimi V əsrdə yox, VII – IX əsrlərdə yaşadığına işarə edir. Müəllif  erməni tarixini onun mifolojik dövrlərindən başlayaraq  qələmə almış, bura ermənilərin  xristianlığı qəbulu məsələsini də daxil etmişdir. Əsərdə,  Favstos Buzanddan fərqli olaraq, apostol Faddeylə yanaşı Bartolomey və Qriqorinin də adları çəkilir. Belə ki, kilsələrinin qədimliyini qəbul etdirmək üçün Hz. İsa və ya onun həvariləri ilə öz kilsələri arasında əlaqə yaratmağa çalışan klassik dövr erməni yazıçıları erməni kilsəsinin yaranma tarixini mümkün qədər erkən dövrə çəkməyə çalışırlar. Lakin yuxarıda da qeyd

etdiymiz kimi onların apostol iddiaları ilə bağlı qədim Roma-Yunan mənbələri susmaqdadırlar [4, s. 96].

Nəticədə, qədim erməni mənbələrinin işığında, onların xristianlaşmasında iki qol diqqət çəkir. Buna əsasən ermənilər bir tərəfdən qonşuları olan suriyalıların təsiri ilə xristianlaşmış, digər tərəfdən isə IV əsrin əvvəllərində Romanın Kapadokiya əyalətindən gəlmiş Maarifçi Qriqorinin vasitəsi ilə xristianlığı qəbul etmişlər.

Qeyd etdik ki, ermənilər xristianlığın qəbulunu 301-ci il olaraq tarixləndirirlər. Lakin erməni mənbələri 301-ci ili xristianlığın qəbul tarixi kimi göstərsə də, bu mənbələrin özündə də bu tarixlə bağlı fərqli, bir-birinə zidd məlumatlar yer alır. Mövzunun təməl qaynağı hesab edilən Aqafangelə görə IV Trıdatin hakimiyyətinin ilk ilində zindana atılan Qriqori, burada cəmi 15 il qalmışdır [Aa, 215]. Əgər bu məlumat doğrudursa, Qriqorinin zindandan çıxışı və Armeniyanın xristianlaşdırılması ən tez 314-cü ildə ola bilər. Bundan əlavə X-XI əsrdə yaşamış "Asoğik" ləqəbli erməni tarixçisi Stepanos Taronetsi "Ümumi tarix" əsərində Qriqorinin Trıdatın hakimiyyət on yeddinci ilində zindandan çıxdığını qeyd etmişdir. Nəzərə alsaq ki, Trıdat Armeniyada yalnız 298-ci ildə hakimiyyətdə ola bilərdi, yenə də tarix 314-315-ci ili göstərməkdədir [Asolik, II. 1].

Eyni zamanda yuxarıda qeyd etdiyimiz ermənilərin xristianlığı qəbulu tarixi Roma–Sasani münasibətləri və Roma İmperiyasının dini siyasəti baxımından incələnməlidir. Buna səbəb isə o dövrdə qatı bütpərəst inancı olan və xristianlara qarşı amansız mübarizə aparan Diokletianın Roma imperatoru olması idi. Xristianlara qarşı təzyiqi artıran imperator 303-cü ildə "Məsihin məbədlərini yerlə-yeksan etmək, müqəddəs kitabları yandırmaq, rahiblərə və bütün xristianlara əzab vermək" əmri ilə fərman verdi [5, s. 674]. Belə bir vaxtda Roma imperiyasının vassalı olan və siyasi müstəqilliyi olmayan erməni çarı Trıdatın xristianlığı rəsmi din kimi qəbul etməsi mümkün görünmürdü. Romada xristianlığın I Konstantinin verdiyi 313-cü il tarixli Milan fərmanı ilə rəsmən tanındığını nəzərə alsaq, ermənilərin də xristianlığı ən erkən 314-cü ildə qəbul etməsi mümkün görünür. Bu məlumat ermənilərin tarixdə ilk xristian dövləti olması arqumentini təkzib edir. Eyni zamanda Roma-Sasani müharibəsindən sonra Armeniya Sasani şahı Narseh (293-302) tərəfindən fəth edilmiş və böyük hissəsi 298-ci ildə bağlanmış I Nisibis (Nizbin sülhü) müqaviləsinə əsasən Romaya verilmişdir. Deməli ki, Trıdat Armeniyada yalnız 298-ci ildə və ya daha sonra hökmdar ola bilərdi. Aqafangelin Qriqorinin 15 il həbsdə olduğunu açıq şəkildə ifadə etməsi və onun Qeysəriyyədə katolikos təyin edildiyi tarix də bunu təsdiq edir. Bu halda, yalnız təxminən 314-cü ildə Qriqori həbsxanadan çıxmış və Armeniyada xristianlığı yaymağa başlamışdır. Belə olduğu halda, ermənilərin xristianlığı 314-cü ildən, yəni Milan fərmanından əvvəl dövlət dini kimi tanıması mümkün deyildir [5, s. 80]. Həmçinin, əldə etdiyimiz tarixi məlumatlar göstərir ki, Müqəddəs Qriqori Trıdata xristianlığı qəbul etdirdikdən sonra, Kapadokiya arxiyepiskopu Leontiusdan Qeysəriyyə arxiyepiskopu kimi xeyr-dua alıb. Lakin dəqiq şəkildə bizə məlumdur ki, Müqəddəs Leontius 314-cü ilə qədər Qeysəriyyədə o məqamı tutmayıb. Onun yepiskopluq dövrü 319-325-ci illərə təsadüf edir [17, s. 88; 18, s. 488].

Ermənilərin, o cümlədən digər Cənubi Qafqaz xalqlarının xristianlığı qəbulunu Alban tarixçisi Musa Kalankatlı "Albaniya tarixi" tarixi əsərində də qeyd etmişdir. O, bu tarixi Roma imperatoru Böyük Konstantinin (306-337) hakimiyyəti zamanına aid edərək daha düzgün tarix vermişdir. "Allah insan nəslini ziyarət etdiyi günlərdə, böyük imperator Konstantinin hakimiyyəti altında qərbi tərəqqiyə çağıranda və Armeniyanı kral Trıdatın vasitəsi ilə xristianlığa çevirəndə o, həqiqi xilas günəşinin təzahürü haqqında azacıq bilən Şərq ölkələrini də imana gətirir və albanlara əla-həzrət Urnayr vasitəçiliyi ilə yenidən xristianlığı qəbul etdirir. Bütün bu ilahi möcüzələr eyni vaxtda olmuşdur" [MK, I. 9].

Belə ki, Trıdatın xristianlığı niyə qəbul etdiyini təxmin etmək də çətin deyil. O, hakimiyyətə bütpərəst Roma imperatorunun dəstəyi ilə çıxsa da, Roma dünyasında baş

verənlərdən xəbərsiz deyildi. Çox güman ki, Roma imperatorlarının xristianlığa qarşı dəyişən baxışları artıq onu da bu addımı atmağa məcbur edəcəkdir. Nəticədə bununla Trıdat erməniləri Romaya (və son nəticədə qərb dünyasına) yaxınlaşdıraraq onları Sasani mədəni və siyasi təsirindən uzaqlaşdıra biləcəkdi.

Bütün bu tarixi faktlar fonunda düşündürücü suallardan biri ermənilərin niyə 301-ci ildə israr etdikləridir. 1700 ilə yaxın davam edən bir fenomen artıq kifayət qədər güclü və köklü olduğu halda bir neçə ildən az və ya çox olmasının nə əhəmiyyəti ? Bunu Ermənistanın Qərb dünyasında "ilk xristian dövləti" iddiası sayəsində qazandığı nüfuzla izah etmək olar. Çünki "ilk xristian dövləti"ni qəbul etməklə bəzi hüquqlar əldə edərək, qonşu ölkələri təsir altına ala biləcəkdi.

Lakin önəmli bir məsələni qeyd etməliyik ki, xristianlıq Albaniyada Ermənistana nisbətən daha erkən yayılmış və qəbul edilmişdir. Bunları sübut edən mətnlər Musa Kalankatlının "Albaniya tarixi" əsərində verilmişdir. Əsərdə erməni katolikosu Avraamın albanlara məktubu verilmişdir: *Bizdən (ermənilərdən) qabaq mövcud olan Alban kilsəsi əvvəllər bizimlə (ermənilərlə) razılaşırdı"* [MK, II. 47]. Digər bir fraqment*: "Müqəddəs Yelisey orada (Albaniyada) xristianlığı Ermənistandan qabaq təbliğ etmiş və orada (Albaniyada) daha dəqiq Kiş kəndində Ermənistandan qabaq kilsə tikdirmişdir. Həmin kilsə Şərq kilsələrinin anası idi, yəni metropoliya idi"* [MK, II. 43]. Daha bir fraqment: *"Ermənilər xaçpərəstliyə Roma təqviminin qırx üçüncü ilində dönüblər. Albaniya isə xristianlığı ermənilərdən 270 il qabaq qəbul edib"* [MK, II. 47].

**2. Xristianlığın qəbulundan sonra kilsə fəaliyyəti.**

Ermənilərin xristianlığı rəsmi qəbul etməsi və Müqəddəs Qriqorinin Qeysəriyyədə təqdis edilməsindən sonra onun ilk işi yeni yaranmaqda olan kilsənin strukturunu qurmaq oldu. Ermənilər xristianlığı qəbul etdikdən sonra erməni aristokrat təbəqəsi öz kilsə təşkilatını yaratmağa başladı [8, s. 245-254]. Trıdatın xristianlığı qəbul etməsi ilə başlayan bu proses tezliklə feodal xarakter aldı. Kilsənin institusional strukturunun qurulması istiqamətində bir sıra addımlar atıldı. Belə ki, Aqafangelin şişirdilmiş qeydlərinə görə, onlar kilsənin olmasını o qədər arzulayırdılar ki, ilk kilsənin inşasından cəmi 20 gün sonra 190 mindən çox erməni xaç suyuna salınaraq xristianlığı qəbul etdi [Aa, 814]. Lakin bu rəqəmlər danışdığımız dövrü nəzərə alsaq olduqca şişirdilmişdir. Bəhs etdiyimiz dövrdə əhalinin sayı o qədər ola bilməzdi. Eyni zamanda, Armeniyada ilk dövrlərdə xristianlıq yuxarı təbəqə vasitəsilə qəbul edilmişdir və yerli əhali arasında bu qədər geniş yayıla bilməzdi.

Xristianlığın aristokratik bazasını daha da artırmaq üçün III Trıdat Müqəddəs Qriqorini bir neçə zadəgan ailə üzvü ilə birlikdə Armeniyanın katolikosu olmaq üçün əvvəllər təlim aldığı Qeysəriyyəyə göndərdi [Aa, 795]. Əslində kral ilə kilsə arasındakı bu münasibət qarşılıqlı faydanın sübutu idi. Çünki bu yolla zadəgan təbəqəsinin (naxarar) nümayəndələri erməni kilsəsinin ən yüksək pillələrini tutaraq aristokratik kilsə təşkilatının formalaşmasını təmin edəcəkdilər. İqtisadi hakimiyyəti ələ keçirən erməni kilsələrinin sayı artdıqca mədəni uçurumu aradan qaldırmaq üçün həyata keçirilən maarifləndirmə tədbirlərinin də əhatə dairəsi genişlənirdi. Bütpərəst keşişlərin və ya erməni zadəganlarının övladlarının təhsili kilsə tərəfindən himayə edilir və tələbələr qədim yunan və ya suriya dillərində təhsil almaq üçün qruplara bölünürdülər. Müqəddəs Qriqori bu fəaliyyətləri ilə kilsəni cəmiyyətin mühüm bir mərkəzinə yerləşdirərkən, xristianlığa xidmət etmək üçün 12 nəfərlik bir qrup yaratmağı da diqqətdən kənarda qoymamışdır [Aa, 845]. Aqafangel tərəfindən istinad edilən yepiskopların siyahısı, ehtimal ki, Hz. İsanın həvarilərinin sayına uyğun olaraq xüsusi olaraq 12 seçilmişdir.

Kilsənin təşkilatlanmasında növbəti addım isə 365-ci ildə Aşdişadda ermənilərin ilk milli kilsə məclisini çağrılması oldu. Bu vaxt erməni kilsəsinin katalikosu Nerses idi. O, monarxiyadan çox xalqın tərəfini tutmaqla erməni kilsəsini yeni səviyyəyə qaldırdı [11, s. 26]. Bu məclisin çağırılması nəticəsində Müqəddəs Qriqorun təşəbbüsü ilə irəli sürülmüş

institusional kilsə ideyası, hazırda tikinti işlərini öz üzərinə götürən, uşaq evləri və xəstəxanalar yaradan, iflic və cüzamlıları cəmiyyətə inteqrasiya etməyə çalışan sosial struktura çevrildi [MX, III.20]. Kilsə inzibati vahidlərinin artırılması məclisin digər nəticəsi olduğu halda, əsas ictimai nəticəsi bütpərəst tanrılara sitayişi tamamilə qadağan edərək, qalan sonuncu bütpərəst məbədlərin sökülməsi idi [Aa, 777-790].

Artıq təşkilatlanmağa çalışan kilsə I Nersesin ölümü ilə yeni bir dövrə qədəm qoydu. I Nersesə qədər erməni katolikoslar rəsmi olaraq təyin olunması **dini mərkəz Qeysəriyyə yepiskopluğunun** himayəsi və vasitəçiliyi ilə həyata keçirilirdi. [12, s. 220]. Onun ölümündən sonra isə Nersesi izləyən katolikoslar köhnə ənənəni davam etdirməkdən və Qeysəriyyə yepiskoplarına təqdis olunmaqdansa, öz kilsələrinin erməni yepiskopları tərəfindən təqdis olunmağına üstünlük verdilər. Bu ideya, əsasən, erməni kilsəsinin öz daxilində müstəqil və institusional quruluşa qayıtması istiqamətində atılan ən mühüm addımlardan biri oldu.

Lakin, ermənilər xristianlığı qəbul etmələrindən bir əsrdən çox keçməsinə baxmayaraq, özlərinə məxsus intellektual dünya yarada bilməmişdilər. Odur ki, ermənilərin qədim yunan və suriya dillərindən mədəni asılılığının ümumən cəmiyyətə nə dərəcədə təsir etdiyi məlum olmasa da, dövrün ziyalı ermənilərinə təsir etdiyi şübhəsizdir. Çünki Armeniyada dini həyatın demək olar ki, hər bir sahəsi, o cümlədən kilsə rəsmi yazışmaları daha çox suriya dilində aparılırdı. Buna görə də, mövcud dini siyasi həyatda qarışıqlıqlar fonunda Mesrop Maştos adlı keşiş ermənilər üçün qədim yunan və suriya əlifbasına əsaslanan erməni əlifbasını yaratdı. *"...Buna görə də o, erməni dili üçün hərflər icad etməyə qərar verdi. Özünü tamamilə bu işə həsr etdiyindən, etdiyi müxtəlif cəhdlər onu çox yorurdu"* [MX, III. 47].

Bu kontekstdə erməni əlifbasının birbaşa kilsəyə xidmət etmək üçün yaradıldığının ən güclü sübutu İncil və onun erməni dilinə tərcümə edilmiş ilk kitabların ekvivalentləridir. Əslində müqəddəs tərcüməçilərdən biri kimi qəbul edilən Moisey Xorenliyə görə İncillə birlikdə 22 mühüm kitab birbaşa erməni əlifbasına çevrilmişdir [MX, III.5]. Erməni kilsəsi klassik əsərləri sürətlə ermənicəyə çevirməyə çalışarkən, digər tərəfdən İncilin tərcüməsi bitməmiş kilsə atalarının əsərlərini tərcümə etməyə başlamışdır. Beləliklə, hər bir tərcümə əsəri ermənilərin öz müqəddəs kitab kitabxanalarının formalaşmasına daha çox töhfə verdi. Ona görə də demək olar ki, erməni ədəbiyyatı xristianlığın mədəni nəticəsi olaraq ortaya çıxdı. Çünki bu vasitə ilə ermənilər mədəni mühit əldə edərək kilsənin rəhbərliyi altında birliklərini təmin edəcəkdilər.

V əsr xristian aləmində isə əsasında ierarxik mübarizənin durduğu şərq və qərb kilsələri arasında doqmatik ideya mübarizəsi (monofizitlərlə diofizitlər arasında) gedirdi. Sözügedən mübahisənin kəskinləşməsi 451-ci ildə çağırılan məşhur Xalkedon Kilsə Məclisinin intellektual strukturunu formalaşdırdı və bu məclisin qərarları erməniləri digər kilsələrdən tamamilə ayıran prosesin başlanğıcın qoydu və ermənilər üçün kilsənin müstəqilliyi yolunda yeni bir addım oldu.

Eyni zamanda erməni icması daxilindəki siyasi qarşıdurma da dini çərçivə qazanaraq , iranpərəst bütpərəst ermənilərlə, Romayönümlü xristian ermənilər arasındakı parçalanma açıq müharibəyə çevrildi. Erməni zadəganları və erməni kilsəsinin dəstəklədiyi ordu 451-ci ildə sparapet Vardan Mamikonyanın başçılığı ilə Sasanilərə qarşı üsyana qalxsalar da, Avarayr döyüşündə uğursuzluğa düçar olsalar da, bu müharibə erməni kilsəsinin cəmiyyətə təsirini gücləndirdi. Avarayr döyüşündə həlak olan ermənilərin adı "şəhid və qəhrəman" kimi çəkilərək, bu vəziyyət "qəhrəmanlıq" mifi vasitəsilə xristianlığın millətdə kök salmasına yol açdı.

Xalkedon Kilsə Məclisi ilə dərinləşən inanc fərqləndirmə prosesini başa çatdırmaq üçün son addım dua və ritual günlərini təyin edərkən istifadə etməli olduqları qədim yunan təqviminə qarşı yeni bir alternativ təqvimin yaradılması oldu. Erməni kilsəsi tarixinin ən

mühüm yığıncaqlarından biri olan 554-cü ildə keçirilən Dvin məclisi nəticəsində ermənilər nəinki dini müstəqilliklərini elan etdilər və 449-cu ildə İkinci Efes Şurasının qərarlarını qəbul etdiklərini bəyan edərək, həm də erməni təqviminin yaradılması prosesinə başladılar. 562-ci ildə İsgəndəriyyəli Aeas tərəfindən tamamlanan təqvim, 584-cü ildə dövrün Erməni katolikosu II Musa (574-604) tərəfindən qəbul edildi [5, s. 229]. Bununla Erməni kilsəsinin romalılarla ortaq təqvim əlaqəsi sona çatdı və dini günlər və mərasimlər erməni motivləri ilə, Erməni kilsə ənənəsinə uyğun təşkil olunmağa başladı.

Bizans kilsəsi ilə Erməni kilsəsi arasında əlaqələrin kəsilməsi və ermənilərin vahid kilsəyə deyil məhz erməni Qriqoryan kilsəsinə bağlı qalmaları ermənilər arasında dövlətçilik hisslərinin güclənməsinə yol açmış oldu. Bu kontekstdə xristianlıq və ona bağlı olan qriqoryan brendi erməni kimliyinin dominant elementinə çevrildi. Bu haqda görkəmli türk tarixçisi və “Erməni məsələsi” barəsində bir neçə sanballı monoqrafiyanın müəllifi Kamuran Gürün “Ermeni dosyası” əsərində yazır: “Erməni millətindən, erməni dövlətindən, erməni tarixindən yox, erməni kilsəsindən, erməni kilsə dövlətindən danışmaq lazımdır. Erməni kilsəsinin varlığını davam etdirməsi üçün qüvvəyə, dövlətə ehtiyacı var. Erməni dövləti ideyasını doğuran erməni milləti deyil, erməni kilsəsidir” [7, s. 54-55]. Bu mövzuda erməni əsilli Dikran Boyajiyan da erməni kilsəsinin vəziyyətini bu cür açıqlamışdır: “Erməni kilsəsi kilsənin həyat verdiyi erməni millətinin ruhunun yenidən doğulmaq üçün yaşadığı bədəndir”. Dikran əslində erməni milləti ilə erməni kilsəsi arasındakı üzvi reallığı çox gözəl ümumiləşdirmişdir [15, s. 212-213].

### *Nəticə*

Nəticədə, göründüyü kimi ermənilər üçün xristianlığın qəbulunu təkcə dini bir proses kimi deyil, həm də siyasi gediş kimi düşünmək daha məntiqlidir. Buna görə də ermənilərin tarixini başa düşmək üçün kilsənin inkişaf mərhələlərini nəzərə almaq vacibdir. Kilsə hər zaman ermənilərin bir icma olaraq həyatını təmin edən, həm dini, həm də dünyəvi həyatlarını təşkil edən, onları bir araya gətirən bir qurum olmuşdur. Erməni kilsələri milli şüurun yaşamasını təmin edən və uzun tarixi proses boyu erməni millətçiliyini yaşadan mühüm vasitələrdən biri kimi millətçilik təhsilinin mərkəzi olmuşdur. Təsadüfi deyildir ki, Erməni dövləti ideyasının yaradıcısıda məhz Erməni kilsəsi olmuşdur.

### ANTİK ƏDƏBİYYAT

Aa. (Agatangełos *Patmut' iwn Hayoc'*)

AGATANGELOS, History of the Armenians, (Trans. Robert W. Thomson), Albany: State University of New York Press. 1976

Asolik. (= Stepanos Taronecı Asolik), *Tiezerekan Patmut'iwn*

The Universal of Stepanos Taroneci, (Trans. Tım Greenwood), Oxford: OUP, 2017

P'B. (= Pawstos Buzand, *Pawstosi Buzandac' woy Patmut'iwn Hayoc')*

Buzand Pawstos, The Epic Histories Attributed to Pʿawstos Buzand, (Trans. Nina G. Garsoïan), Cambridge; MA: Harvard University Press. 1989

MD. (= Movses Dasxuranci, *Patmut'iwn Aluanic)*

Movses Dasxurancʿı. The History of The Caucasian Albanians (translated by C.J.F Dowsett), London, 1961

MX. (= Movses Dasxuranci, *Patmut'iwn Hayoc)*

Movses Xorenacʿi, History of the Armenians, (Trans. Robert W. Thomson), Cambridge; MA; London: Harvard University Press, (1978).

ƏDƏBİYYAT

1. Atiya, A. S, Doğu Hıristiyanlığı Tarihi, (Çev. Nurettin Hiçyılmaz), Doz yayınları, İstanbul, 2005, 496 s.
2. Cinemre, İ. H. Geç Antik Çağ'da Ermeni Kilisesi'nin Kurumsallaşması, Asia Minor Studies journal, 2019, 7(1), s. 95-105
3. Coene, F. The Caucasus: An Introduction, Routledge, New York. 2010, 256 p.
4. Greenwood, T, "Armenia", in; The Oxford Handbook of Late Antiquity, (Ed. Scott F. Johnson), Oxford: Oxford University Press,2012, pp.115-141.
5. Grousset, R. Başlangıçtan 1071'e Ermenilerin Tarihi, (Çev. Sosi Dolanoğlu), İstanbul: Ayrıntı Yayınları, 2006. 751 s.
6. Gulesserıan, P. (Translated by; Terenig Vartabed Poladian), The Armenian Church, AMS Press, New York, 1970, 160 p.
7. Gürün K. Ermeni dosyası, Ankara: Bilgi Yayınevi, 2012, 473 s.
8. İskefiyeli, Z. Ermeni Kimliğinin Oluşumunda Din Faktörü: Hıristiyanlık, Kilise ve Misyonerler, SBE Akademik İncelemeler Dergisi, 2007, cilt: II, sayı: 1, s. 231-255
9. Kaçar, T, "Ermeniler Nasıl ve Ne Zaman Hıristiyan Oldu?", içinde; XVI. Türk Tarih Kongresi, 20-24 Eylül 2010 Ankara, Kongreye Sunulan Bildiriler, Eski Anadolu Uygarlıkları, C. I, Ankara: Türk Tarih Kurumu, 2015, s..245-254.
10. Kalafat Y, Mahmud Niyazi Sezgin. Ermeni kültür stratejisi ve albanlar meselesi. Ermeni Araştırmaları, Sayı 5, Bahar 2002.
11. Kılıç, D. Ermeni kimliğinin inşasında kilisenin rolu, İlahiyyat dergisi 13:1 (2008), s. 51-63.
12. Məmmədova, F. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası, Azərnəşr, Bakı 1993, 260 s.
13. Nersessian, V.N. "Armenian Christianity", The Blackwell Companion to Eastern Christianity, (Ed. Ken Parry), Oxford: Blackwell, 2007, 23-46 p.
14. Özdaşlı E, Alban Kültür Mirası Üzerine İnşa Edilmiş İnşa Edilmiş Tarih: Ermenilerin Hristiyanlığı Kabul Etmiş "İlk Devlet" Oldukları Miti Üzerine Bir Araştırma, Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi Y.2016, C.21, S.2, s. 557-566
15. Sezgi, E. Ermeni Kilisesi'nın Ermeni Toplumu Üzerindeki Gücü ve Ermeni Devletinin Kurulmasındakı Rolu, , KAFDAĞI, Cilt:6, Sayı 2, 2021, s. 205-233
16. Гаджиев, М.С. Религиозная жизнь в Кавказской Албании: христианство vs зороастризм, Вестник древней истории, 2022, №3 , том. 82, с. 672-699.
17. Никоноров И.А. История Церкви Кавказской Албании по Моисею Калантакуйскому, Москва, 2021, 392 стр.
18. Э.В.Ш. Леонтий / Православная энциклопедия, том XL. Москва, 2015, с. 488.

УДК 94

*Самира Агасалам кызы Гадыева*
*Институт Истории и Этнологии им. А.А.Бакиханова НАНА*

РОЛЬ ХРИСТИАНСТВА В ФОРМИРОВАНИИ АРМЯНСКОЙ ИДЕОЛОГИИ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Армения, Христианство, Святой Григорий, Апостол, Армянская церковь

На формирование национальной идентичности влияют многочисленные факторы. Один из них - религия (в частности христианство), которая сыграла незаменимую роль в сохранении политического единства, становлении и развитии армянского народа на протяжении всей его истории. Принятие христианства армянским обществом было не просто религиозной трансформацией; это явление стало фундаментальным фактором в формировании национальной и этнической идентичности. С распространением христианства Армянская церковь стала не только религиозным центром, но и ключевым организатором политической и социальной жизни, способствуя укреплению национального единства на армянских землях. Исторические источники свидетельствуют о том, что армяне связывали своё национальное существование и идеологию прежде всего с церковью и религией, что сыграло важную роль в сохранении их этнической самобытности и политического единства. В данной статье рассматриваются процесс принятия христианства армянами, структура церкви, сформировавшаяся после этого, и её роль в формировании армянской идентичности. Кроме того, на основе различных источников анализируется историческая обоснованность утверждения армян о том, что они являются «первым христианским государством». В результате делается вывод, что христианство и церковь находились в центре армянской национальной идеологии и политической идентичности, играя незаменимую роль на протяжении всего исторического пути.

UDC 94

*Samira Agasalam Hadiyeva*
*Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS*

THE ROLE OF CHRISTIANITY IN THE FORMATION OF ARMENIAN IDEOLOGY
*SUMMARY*

*Keywords*: Armenia, Christianity, St. Gregory, Apostle, Armenian Church

There are many factors that influence the formation of national identity. One such factor, religion (specifically Christianity), has played an indispensable role throughout history in preserving the political unity, formation, and development of the Armenian nation. The acceptance of Christianity by Armenian society was not merely a religious transformation, but also a foundational element in the formation of their national and ethnic identity. With the spread of Christianity, the Armenian Church became not only a religious center but also a key organizer of political and social life, strengthening national unity across the Armenian

territory. Historical sources reveal that Armenians have closely connected their national existence and ideology with the church and religion, which have played a crucial role in preserving their ethnic distinctiveness and political cohesion. This article examines the process of the Armenians' adoption of Christianity, the church structures that emerged thereafter, and the role of these structures in the formation of Armenian identity. Additionally, the historical basis of the Armenians' claim of being the "first Christian state"—a narrative often emphasized in international discourse—has been analyzed using various sources. The research concludes that Christianity and the Armenian Church have stood at the core of Armenian national ideology and political identity, playing an irreplaceable role throughout their historical development.

***Daxil oldu: 03.11.2025-ci il***